# Kənd təsərrüfatının siyahıyaalınması haqqın-

Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Təsadüfi deyildir ki, cənab İlham Əliyevin 12 yanvar 2015-ci il tarixli Sərəncamı ilə 2015-ci il ölkəmizdə “Kənd təsərrüfatı ili” elan edilmişdir. Məhz bu səbəbdən aqrar bölmədə həyata keçirilən islahatların informasiya təminatının yaxşılaşdırılması məqsədi ilə kənd təsərrüfatında baş verən proseslər haqqında aktual məlumatların əldə edilməsini təmin etmək üçün ölkəmizdə Kənd təsərrüfatının siyahıyaalınmasının həyata keçirilməsinin əhəmiyyəti olduqca böyükdür.

Qeyd edilənlər nəzərə alınaraq, Nazirlər Kabinetinin müvafiq Qərarına əsasən 1,3 milyondan çox müxtəlif təşkilati-hüquqi formalı təsərrüfatı əhatə edəcək kənd təsərrüfatının siyahıyaalmasının bu il iyun ayının 1—30-da keçirilməsi nəzərdə tutulmuşdur. Kənd təsərrüfatı siyahıyaalınmasına hazırlıq işlərinin aparılması, onun keçirilməsi, materialların işlənib yekunlaşdırılması və nəticələrinin nəşri bu sahədə zəngin təcrübəsi olan Dövlət Statistika Komitəsinə və yerli statistika orqanlarına həvalə edilmişdir.

Siyahıyaalmanın həm müəssisə, həm də əhali kateqoriyası üçün nəzərdə tutulmuş 1 və 2 nömrəli sorğu vərəqələri əsasında aparılması nəzərdə tutulur. Sorğu vərəqələri hazırlanarkən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və MDB Statistika Komitəsinin tövsiyələri, bir sıra dünya ölkələrinin bu sahədəki əməli təcrübələri və yerli xüsusiyyətlər nəzərə alınmışdır. Bu zaman təsərrüfatların mənsubiyyəti, torpaq mülkiyyəti, icarə münasibətləri, torpaqdan və gübrələrdən istifadə, gəlir mənbəyi, kənd təsərrüfatı bitkilərinin əkin sahələri, çoxillik əkmələrin növləri üzrə ağac və kolların sayı, tətbiq edilən suvarma üsulları, mal-qara və quşların cins və yaş tərkibinə görə mövcudluğu, göl və nohur balıqçılığı, bina və tikililərin, kənd təsərrüfatı texnikası və avadanlıqların mövcudluğu, kənd təsərrüfatında işçi qüvvəsi və s. barədə geniş məlumatlar toplanılacaqdır.

Hər bir təsərrüfat üzrə fərdi məlumatlar məxfi saxlanmaqla yalnız toplu, ümumiləşdirilmiş statistik məqsədlər üçün istifadə olunacaqdır.

Rayon üzrə 22957 ev təsərrüfatında kənd təsərrüfatının siyahıyaalınması həyata keçiriləcəkdir.

Rayon üzrə kənd təsərrüfatının siyahıyaalınmasının keçirilməsinə 22 nəfər təlimatçı-nəzarətçi, 200 nəfər sayıcı olmaqla cəmi 222 nəfər müvəqqəti işçi cəlb edilmişdir. Yerli statistika orqanlarında siyahıyaalma materiallarının işlənməsinə 7 nəfər operatorun cəlb edilməsi nəzərdə tutulmuşdur.

Siyahıyaalmada əldə olunacaq nəticələrin aqrar sahədəki proseslərə uyğunluğunun təmin edilməsində istər müəssisə, istərsə də təsərrüfat rəhbərləri (və ya nümayəndələri) də məsuliyyət daşıyır. Belə ki, alınacaq nəticələr birbaşa onların cavabları ilə əlaqədar olduğundan onlar cavablarında səmimi olmalı, hər hansı faktı gizlətməkdən və ya şişirtməkdən çəkinməlidirlər. Reallığı əks etdirən nəticələr eyni zamanda aqrar sahənin inkişafı üzrə dövlət proqramlarının və digər müvafiq tədbirlərin keyfiyyətlə işlənib hazırlanmasına zəmin yaradacaq ki, bu da nəticə etibarı ilə həm onların mənafeyinə xidmət edəcək, həm də iqtisadiyyatın inkişafına təkan verəcəkdir.

**Natiq AĞAŞİRİNOV,**
**Qəbələ Rayon Statistika İdarəsinin rəis müavini.**

# Məşğulluq mərkəzində dəyirmi masa

Qəbələ rayon Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə “Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi qaydaları barədə işəgötürənlərin məlumatlandırılması və qeyd olunan əhali kateqoriyasının məşğulluğunun təmin edilməsi sahəsində işəgötürənlərin iştirakı” mövzusunda “Dəyirmi masa” keçirildi.



Tədbiri Qəbələ Rayon Məşğulluq Mərkəzinin direktor əvəzi Sahib Ağayev açdı. S. Ağayev ulu öndər Heydər Əliyevin qoyduğu irsi layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının yorulmaz fəaliyyətindən danışaraq ölkə iqtisadiyyatının, o cümlədən rayonun iqtisadiyyatının inkişaf istiqamətlərini xarakterizə etdi. Natiq əhalinin, xüsusilə sosial müdafiəyə daha çox ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların səmərəli məşğulluğunun təmin edilməsi istiqamətində atılmış addımları, əldə olunmuş müsbət nəticələri və qarşıda duran vəzifələri də tədbir iştirakçılarının nəzər-diqqətinə çatdırdı.

S. Ağayev daha sonra çıxışında Dövlət Məşğulluq Xidməti orqanlarının vəzifələrindən, qeyd olunan əhali kateqoriyası üçün müəyyən olunmuş kvota üzrə iş yerləri, kvota üzrə iş yerlərinin tətbiq edilməsi qaydaları, kvotaya şamil edilməyən müəssisələr, mərkəz tərəfindən müəyyən olunmuş kvota üzrə iş yerlərinə işə göndərilmiş sosial cəhətdən həssas əhali qruplarının işə götürülməməsinə görə nəzərdə tutulmuş cərimələr barədə də iştirakçılara ətraflı məlumat verdi.

Rayon İcra Hakimiyyətinin nümayəndəsi Pərvin Məmmədov çıxış edərək son illərdə rayon iqtisadiyyatının inkişaf istiqamətləri, aparılan tikinti-quruculuq işləri, yaradılmış yeni iş yerləri barəsində geniş məlumat verdi və bu məsələnin daim rayon icra hakimiyyətinin diqqət mərkəzində olduğunu bildirmişdir.

İclasda çıxış edən rayon müalicə-diaqnostika mərkəzinin kadrlar üzrə mütəxəssisi Mahir Kərimxanov, telekommunikasiya qovşağının kadrlar üzrə mütəxəssisi Oqtay Əliyev, təhsil şöbəsinin nümayəndəsi Rasim Məmmədov və başqaları sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi qaydaları barədə ətraflı məlumat aldıqlarını, həssas əhali qruplarının məşğulluğunun təmin olunmasında üzərlərinə düşən vəzifələrə daha diqqətlə yanaşacaqlarını bildirdilər.

**«Qəbələ».**

# Avropa Parlamentində Qəbələ rayonunun təqdimatı keçirilib

Mayın 28-də Brüsseldə, Avropa Parlamentinin binasında qurumun Sloveniya və Slovakiyadan olan deputatları İvo Vayql və Boris Zalanın təşkilatçılığı ilə “Qəbələ - Azərbaycanın hələ də kəşf ediləcək bir guşəsi” adı altında Qəbələ rayonunun təqdimat tədbiri keçirilib.

APA-nın Avropa bürosunun məlumatına görə, təqdimat proqramında Qəbələ şəhərinin min il bundan əvvəl Qafqaz Albaniyasının paytaxtı olduğu, indi isə səfalı təbiəti, dağları, abidələri, turizm və əyləncə mərkəzləri, xizək kurortları və hər il keçirilən caz və klassik musiqi festivalları ilə məşhurlaşdığı bildirilib. Tədbirdə AP-nın deputatları və əməkdaşları, Azərbaycanın NATO-dakı səfiri Xəzər İbrahim, Azərbaycanın Avropa İttifaqı yanında daimi nümayəndəliyinin əməkdaşları və Brüsseldə akkreditə olunmuş digər diplomatik korpusların nümayəndələri, Avropa institutlarında təcrübə keçən azərbaycanlı və əcnəbi gənclər, jurnalistlər və digər qonaqlar iştirak ediblər.

AP üzvü İvo Vaygl çıxışında Azərbaycanı Avropa İttifaqının mühüm tərəfdaşı kimi qiymətləndirib. O, Azərbaycanla Aİ arasındakı münasibətlərin daha da inkişaf etdirilməsi üçün daimi dialoq və təmasların aparıldığını deyib: «Mən bu ölkənin dostuyam. Qəbələ rayonuna da səfər etmişəm. Bu, çox gözəl, qədim tarixi və zəngin mədəniyyəti olan, insanları istiqanlılıq və qonaqpərvərliyi ilə seçilən bir şəhərdir».

İ. Vayql eyni zamanda Azərbaycan xalqı üçün böyük faciəyə çevrilmiş Dağlıq Qarabağ münaqişəsindən və Azərbaycan ərazilərinin işğala məruz qalmasından bəhs edib.

AP-nin Slovakiyadan üzvü Boris Zala isə Azərbaycanı şəxsən ona və digər avropalı həmkarlarına tanıdan millət vəkili Elxan Süleymanovun xidmətlərini ayrıca qeyd edərək, təkcə Bakının deyil, Azərbaycanın Qəbələ kimi digər bölgə və rayonlarının da Avropada tanıdılmasının vacibliyini vurğulayıb.

Tədbirdə Avropa Azərbaycan Cəmiyyətinin (AAC) Brüssel ofisinin rəhbəri Mark Vervilghen və Qəbələdə “Savalan” şərablarının istehsalı ilə məşğul olan “ASPI AGRO” MMC şirkətinin həmtəsisçisi Arif Rəhimov da çıxış ediblər.

Avropa Azərbaycan Cəmiyyətinin Brüssel ofisinin rəhbəri Mark Vervilghen iyun ayında Bakıda keçiriləcək ilk Avropa Oyunlarına toxunaraq, yüksək səviyyədə keçirilməsi nəzərdə tutulan belə bir beynəlxalq yarışmanın həm Azərbaycan, həm də Avropa üçün tarixi bir hadisə olduğunu söyləyib. Çıxış edənlərin hamısı bu tədbirin 28 May tarixinə təsadüf etdiyini vurğulayaraq, Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik ediblər.

# QHT-lər üçün məlumatlandırma sessiyası

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində Oğuz, Mingəçevir, Şəki, Qəbələ və Zaqatala QHT-ləri üçün məlumatlandırma sessiyası təşkil olunub.

Sessiyada çıxış edən Şura Katibliyinin əməkdaşı Fərid Qəhrəmanov layihələrin icrası ilə bağlı prosedur qaydaları, hesabatların qəbul olunması formaları haqqında iştirakçılara ətraflı məlumat verib.

Müzakirələrdə region QHT-ləri, onların həyata keçirdiyi layihələrin icra vəziyyəti, hesabatlılıq, ictimaiyyətlə əlaqələrin qurulması, müsbət təcrübələr və onların yayılması mexanizmləri barədə fikir mübadiləsi aparılıb.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**